# *FİLOLOGİYA ELMLƏRİ*

## Azərbaycan romanının təşəkkülü və ədəbi tənqid

**Qızqayıt Süleymanova**
*Bakı Qızlar Universitetinin dosenti,*
*filologiya üzrə fəlsəfə doktoru*
**E-mail:** fidan_abdurahmanova@mail.ru

**Rəyçilər:** filol.ü.e.d., dos. B.B. Əhmədov,
filol.ü.f.d., dos. V. X. Əliyev

**Açar sözlər:** klassik irs, konsepsiya, ədəbi münaqişə, sufizm, panteizm, mistika, ədəbi tənqid

**Ключевые слова:** классическое наследие, концепция, литературные споры, суфизм, пантеизм, мистика, литературная критика

**Key words:** classical heritage, concept, literary conflict, sufism, pantheism, mysticism, literary criticism

Əbülhəsənin yaradıcılığına, xüsusilə onun «Yoxuşlar» və «Dünya qopur» romanlarına münasibətdə M. Quliyev tənqidinin qüvvətli və zəif cəhətləri ortaya çıxır. Tənqidçi şübhəsiz ki, siyasi cəhət əsas alınmaqla, «Dünya qopur» romanındakı obrazlara geniş əhatəli təhlil verir. İdeya və mündərəcəyə, onların sovet reallığına nə dərəcədə uyğun olub-olmamasına xüsusi diqqət yetirilir. M. Quliyevin qeydləri ardıcıl tənqid üstə köklənir. Sovet həqiqəti, onun tarixi mənası ilk romanlarda necə təcəssüm tapırdı, ədəbi tənqid ilk növbədə məhz bu suala cavab verməyə çalışırdı. M. Quliyev yazırdı: «Böyük və ciddi bir əsər olan «Yoxuşlar»da firqəmizin ölkəmizdə kapitalizm qalıqları əleyhinə qəti bir hücuma başladığı bir dövrdə kənddə qolçomaqların kollektiv təsərrüfat formaları əleyhinə vəhşicəsinə mübarizə aparması təsvir edilir.

«Yoxuşlar» romanı türk kəndində kollektiv təsərrüfat ətrafında gedən sinfi mübarizəni müəyyən dərəcədə əks etdirən ilk əsərdir. Romanın müsbət cəhəti və əhəmiyyəti də burasındadır» (1, 43) Hər şeydən əvvəl o, əsəri kompozisiyasına, poetik sistemin sxematizminə görə tənqid edir, hətta göstərir ki, əsərin ilk 20 səhifəsini atmaq lazımdır: «Romanın birinci səhifəsini atmaq lazımdır: «Romanın birinci səhifələrini oxuduqda gerisini oxucu özü əvvəlcədən anlamağa başlayır. Kompozisiyasındakı ibtidailik, sxematizm, ritorika – əsərin əsas nöqsanlarından hesab edilməlidir» (2, 159). Qeyd edək ki, tənqidçi «Yoxuşlar» romanında da Qumru və Bünyaddan başqa digər surətləri «ibtidai plakatçılıq»da günahlandırır. M. Quliyevin tənqid etdiyi ikinci cəhət bu idi ki, Əbülhəsən romanda inqilabın yetişməsi və baş verməsini tarixən zəruri proses olaraq təkamül şəklində verməmiş, «romanda təsvir edilən dairədə inqilab göydən düsür». Diktatura dövrünün sərt prinsiplərini ədəbi tənqidə gətirən tənqidçinin ədəbiyyatda da sərt, atasına belə aman verməyən qəhrəmanlar maraqlandırırdı. Ona görə də M. Quliyev dairə firqə komitəsinin katibi Büləndi ağıllı, çalışqan və doğru firqə xəttində duran bir tip kimi qətiyyətsizlikdə günahlandırır: «Bülənd yumşaq bir ziyalı, zəif və pis firqəçi kimi meydana çıxmışdır... Bülənd obrazı Azərbaycan dairələri üçün tipik və xarakterik deyildir. Belə firqə komitəsi katiblərinin Aprel inqilabı dövründə Azərbaycan rayonlarından birisində çalışması mümkündür. Lakin bu tipik xarakterlərin tipik şəraitdə düzgün olaraq verilməsi demək deyil».

Tənqidçi romanda mövhumat və əsarət zəncirindən xilas olan türk qadınının obrazının

yaradılmasını onun əsas qüsurlarından biri hesab edir. Yazıçını sosializm realizm metoduna sahib ola bilməməkdə günahlandıran tənqidçi heç şübhəsiz ki, bir əsərə «mədəni inqilabın» bütün tələblərini irəli sürür, əslində romanda olanları təhlil əvəzinə olmayanları tələb edir, bununla da yazıçıya öz iradəsini diktə etmiş olurdu.

Tənqidçi psixologizmə meyli, qəhrəmanların öz fərdi aləminə qapılmasını digər bir qüsur sayır, «əlbəttə, psixologiyasız ada mola bilməz, insanları maşın və avtomat kimi təsvir etmək olmaz» fikrini irəli sürsə də özü-özünə qarşı çıxıb ziddiyyətə yol verir. «Əbülhəsən öz qəhrəmanlarını daxili aləmi ilə məşğul olmağı sevir» deyir. İş bununla bitmir. Əslində hər bir əsər üçün məziyyət, bədii ləyaqət göstəricisi olan psixologizmə meyli pisləyən M. Quliyev qəribə bir tərzdə Əbülhəsəni həm də əsərdə dövrün siyasi ab-havasını verə bilməməkdə günahlandırır: «Əbülhəsənin romanında ibtidai-siyasi savad dərsliklərindən köçürülmüş çox lüzumsuz təbliğat vardır. Yazıçı dəfələrlə öz qəhrəmanlarının ağzı ilə kənddə apardığımız siyasəti təkrar edir.

...Bədii əsərdə tendensiya qəhrəmanlarını müəyyən şəraitdə inkişaf edən xarakterləri məntiqi vasitəsilə ifadə edilməlidir, əsərin öz gedişi buna işarə etməlidir».

Ritorikanı Şura ədəbiyyatının əsas nöqsanlarından biri kimi tənqid edən M.Quliyev Əbülhəsənin də qəhrəmanlarının çox danışıb az iş görməsini romanın qüsurlarından sayır. Bununla bərabər burada Əbülhəsənin romanlarının dili tənqid olunur. Yazıçının öz dili üzərində az işləməkdə «səhlənkarlıqda» suçlandıran tənqidçi sərt bir dönüşlə yazır: «ilk nəzərdə adama elə gəlir ki, «Dünya qopur» romanı ruscadan tərcümə edilmişdir». Yazıçını ideya aydınlığına, zəngin sənətkarlığa və mükəmməl formaya diqqət yetirməyə çağıran tənqidçi bütün bu qüsurların aradan qaldırılmasını onun sosializm realizminə keçməsi üçün başlıca şərt hesab edirdi. M. Quliyevin soialist realizmi konsepsiyası isə o dövrün tələbinə uyğun olaraq siyasi-ideoloji xarakter daşıyırdı: «Sosialist realizmi yazıçıdan obyektiv varlığı bütün təfərrüatı ilə təsvir etməyi tələb etdiyi kimi onu ən mühüm şəraitdə və mühüm tiplərdə əks etməyi də tələb edir. Sənətkar inqilab dövrünün və inqilabı hazırlayan konfliktlərin mahiyyətini bədii obrazlarda təcəssüm etdirməlidir. Sosialist realizmi problemi sənətdə həyatı doğru, düzgün, qabiliyyət və çətinlikləri ilə, müsbət və mənfi cəhətləri ilə, sosialist inqilabına qalibiyyət gətirən əsasları ilə təsvir etmək problemidir… sənətdə dövrün sinfi mahiyyətini düzgün və doğru bir şəkildə təcəssüm etdirmək problemidir» (3, 67), Göründüyü kimi, bu mülahizələrdə yeni ədəbiyyatın nə poetikası, nə də estetik özəlliyi barəsində fikir ifadə olunmur. M. Quliyev eyni maksimalizmlə də tənqidin özünə yanaşır… «bizdə kommunist tənqidi yoxdur hökmünü verir. «Yeni proletar üslubu yaratmaq» vəzifəsini irəli sürən tənqidçi «ədəbiyyatı bolşevikləşdirmək» üçün «vahid dünya görüşünə nail olmağı» (4, 68) gənc türk yazıçısı qarşısında duran yaradıcılıq vəzifəsi olaraq izah edirdi.

Yeri gəlmişkən deyək ki, tənqidçi gənc türk yazıçılarının yetişməsi üçün klassik ədəbi irsin zəruriliyini də dönə-dönə ön plana çəkirdi.

M. Quliyevin ədəbi-tənqidi görüşləri 20-30-cu illər tənqidinin maraqlı istiqamətlərindən biri idi. Müasirləri içərisində öz sərt və prinsipial fərdiyyəti ilə seçilən tənqidçi bolşevik ideologiyasına qəlbən inanan, yeni cəmiyyətin insanlara səadət gətirəcəyinə ümidlə işləyib fəaliyyət göstərən istedadlı şəxsiyyət idi. Onun görüşlərində yeni sənətin sosiologiyası haqqında təlim formalaşır, o sənətin bütün növlərinə sosioloji yöndən müraciət edirdi.

Müasirləri olan tənqidçilər sırasında professional tənqidçi olaraq o və Əli Nazim öz temperamentləri ilə xüsusi seçilirdi. «İctimai fikir tariximizin görkəmli siması …M. Quliyev hər bir sənətkarın sosializm cəbhəsinə öz xüsusi yolu ilə gəldiyini layiqincə dərk edir… mədəniyyətin hər bir sahəsinə partiya və dövlət nöqteyi-nəzərindən yanaşmağı bacarırdı» (5).

Ədəbiyyat və mədəniyyətin tarixi-estetik roluna mənsub olduğu xalqın, ideologiyasını qəbul etdiyi inqilabın mənafeləri ilə qiymət verməsi sonralar M. Quliyevin görüşlərində ziddiyyətlər törətdi. Xalqın milli mənafeləri ilə sosializmin siyasi mənafeləri arasında konfliktlər bu ziddiyyətlərin əsas səbəbi idi. Tarixi sosializmin və kommunizmin əbədiyyəti haqqında marksist-leninçi xülyaları yaz dumanı kimi dağıtdıqca M. Quliyev və onun həmkarlarının da nəzəri-metodoloji səhvlərinə mənalı təshihlər verdi. Onun ədəbi tənqidi görüşlərindəki səhvlər yeni cəmiyyətə tükənməz inamı ilə bağlı aldanışlarından irəli gəlirdi. Bütün bunlarla bərabər Azərbaycan ədəbi tənqidi tarixində Mustafa Quliyevin imzası aydın görünməkdədir. Bu imzanın arxasında onun böyük şəxsiyyətini, ədəbiyyat və mədəniyyətimizin sabahı üçün narahat qəlbini görməmək, duymamaq mümkün deyil. O dövrün ədəbi-siyasi ittihamlarla dolu məqalələrindən birində ona qarşı sürülən «günahlardan» birisi çox maraqlıdır: «Şübhəsiz «sağ» səhvlər buraxan yoldaşlardan biri də M. Quliyev yoldaşdır. O keçmiş məqalələrinin hamısında çığırdaşları həddindən artıq qiymətləndirərək idealizə etmiş, proletar ədəbiyyatı uğrunda aparılan mübarizənin istiqamətini əymiş, Cəfər Cabbarlının xırda burjua əsəri «Sevil»i az qala «sol» çığırdaş əsəri kimi göstərməyə çalışmışdır. O özünün keçən il nəşr etdirdiyi «oktyabr və türk ədəbiyyatı» əsərində bir sıra «sağ» səhvlər buraxmışdır. Qolçomaq şairi Sanılını çığırdaş adlandırmaqla kəndli ədəbiyyatı məfhumunu sağ opportunist Polonski kimi izah etmiş, kəndli sinfi təbəqələşməsini görməmiş, proletar ədəbiyyatı ilə daxili çığırdaş ədəbiyyatını qarışdırmış, bunların arasında sinfi hüdud qoymamış və bunlardan başqa bir də həmin əsərində özü bilmədən bir çox pereverzevçi (bühzəsiz ki, «sağ») səhvlər buraxmışdır» (6).

Bu vulqar sosioloji, markist-mexaniki tənqidin bariz nümunəsidir. Buradan bilinmir ki, M. Quliyev «sağ»çıdır, yoxsa «sol»çu — opportunistdir, yoxsa pereverzevçi? Fəqət, buradan aydın olur ki, M. Quliyev ifrat sinfiliyə qapılmadan çığırdaş yazıçıları, o cümlədən böyük C. Cabbarlının vulqar-mexaniki tənqidin ifrat hücumlarından qorumağa çalışır. Qolçomaq yazıçısı adlandırılaraq tarixin qaranlıq küncünə atılmış gözəl nasir H.K. Sanılını heç olmasa çığırdaş olaraq ədəbiyyatda saxlamağa çalışırdı. Bununla da əbədi yaşayacaq bədii mənafeləri ötərgi siyasi mənafelərdən üstün tuturdu. M. Quliyevin tənqidində ədəbi və mədəni fikrin tarixi taleyini, milli perspektivini görmək meyli güclü idi. İllər keçəcək, düz 25 ildən sonra artıq M. Quliyevin yoxluğu dövründə həmin Mehdi Hüseyn bu həqiqəti dərk edərək aşağıdakı fikirləri yazacaq: «Mustafa Quliyev … bütün həyatını xalq səadəti yolunda sərf etmiş görkəmli ictimai xadim və ədəbiyyatçı olmuşdur. Onun vaxtsız və faciəli ölümü müasir Azərbaycan ədəbi-tənqidi fikri üçün böyük itkidir.

M. Quliyev hər bir sənətkarın sosializm cəbhəsinə öz xüsusi yolu ilə gəldiyini layiqincə dərk etdiyindən … o vaxtlar «çığırdaş» adlanan yazıçıların dünyagörüşündə tədrici, lakin səmimi bir dönüş yaratmağa çalışırdı.

«Sevil» və «Od gəlini» əsərlərini hər növ hücumdan qorumaqla o tək Cabbarlıya deyil, ümumiyyətlə, sovet ədəbiyyatı məsələlərinə həqiqi partiyalı bir tənqidçi kimi yanaşırdı» (7). Bu fikirləri həm etiraf, həm də həqiqətin dərki kimi qəbul etmək olar. M. Hüseyn, ümumiyyətlə, 37-nin repressiyasından can qurtaranlar hamısı belə etiraflarla bir növ 37-də qurban gedənlərlə bağlı 20-30-cü illərdə yazdıqları ittihamların əsassızlığını boyunlarına alırdılar. Bu illərdə siyasi-ideoloji ittiham dolusu məqalələr hamı haqqında yazılmışdı. Bunu anlamaq üçün 1920-1930-cu illərin bütün materiallarını oxumağa ehtiyac yoxdur. Yalnız «Ədəbiyyat» qəzetinin 9 iyun 1937-ci il sayı ilə tanış olmaq kifayətdir. Qəzetin bu sayında çap olunmuş məqalələrin adları özlüyündə hər şeyi deyir. Onlara diqqət yetirək: S. Vurğun. «Səhvlərimiz haqqında», R. Rza. «Düşmənlərə qarşı amansız olmalı», A. Fərrux. «Sonadək

ifşa etməli», A.N. Rəsulzadə. «Sıralarımızda düşmənlərə yer yoxdur», S.S. «Sayıqlığın kütləşdiyi yerdə», C. Xəndan. «Sıralarımızı təmizləyəlim», O. Sarıvəlli. «Nizamnamə təhqir edilmişdir», M.S. Ordubadi. «Təmizliyə başlamalıyıq», Mir Cəlal. «Amansız olmalı».

Bütün bu yazılarda həbs olunanların «günahları» bir daha sadalanıb ittiham edilir, sağ qalanlar bir-birini hamıdan tez daha amansız ifşa etməyə çalışırdı. Bu ziyalılığın böyük milli faciəsi, zor və təzyiq altında deformasiyası idi. Əlbəttə, bu gün biz tarixin həmin mərhələsini nəzərə almadan onları qınamağa haqlı deyilik. Bununla belə «Sovet ədəbi hərəkatının başlandığı mühitin bərpasına və təhlilinə böyük diqqət yetirilməlidir. Vətəndaş müharibəsi dövründə və 20-ci illərin əvvəllərində sənət sahəsində gedən amansız mübarizə və ziddiyyətlər haqqında, sovet ədəbiyyatının dostları və düşmənləri haqqında ayrıca fəsillər yazılmalıdır» (8. 287). Bu fikir eynilə Azərbaycan ədəbiyyatının və ədəbi-tənqidinin həmin epoxasına — 1920-1937-ci illərdə də aiddir. Bu iş isə yalnız o dövrün dəbi-nəzəri fikrini formalaşdıran görkəmli ədib və tənqidçilərin irsini ayrı-ayrılıqda monoqrafik hüdudlarda öyrənmədən mümkün deyil. M. Quliyev də Azərbaycanda 20-30-cu illərdə ab-hava yaradan və onun nəzəri-estetik istiqamətini müəyyənləşdirən belə şəxsiyyətlərdən biri idi. «O, Azərbaycan sovet ədəbiyyatının təşəkkülü dövründə gənc proletar şairlərinin, ədiblərinin və dramaturqlarının yetişməsində bir dost və müəllim kimi son dərəcə müsbət rol oynamışdır» (Mehdi Hüseyn). Bunu heç vəchlə inkar etmək olmaz.

**Məqalənin aktuallığı.** Tənqidçi romanda mövhumat və əsarət zəncirindən xilas olan türk qadınının obrazının yaradılmasını onun əsas qüsurlarından biri hesab edir. Yazıçını sosializm realizm metoduna sahib ola bilməməkdə günahlandıran tənqidçi heç şübhəsiz ki, bir əsərə «mədəni inqilabın» bütün tələblərini irəli sürür, əslində romanda olanları təhlil əvəzinə olmayanları tələb edir, bununla da yazıçıya öz iradəsini diktə etmiş olurdu.

**Məqalənin elmi yeniliyi.** 30-cu illərdə ilk Azərbaycan sovet romanları — Əbülhəsənin «Yoxuşlar» və «Dünya qopur» əsərləri çap olunur və dərhal da ədəbi tənqidin diqqətini cəlb edir. Bu romanlara qədər Şura nəsri əsasən hekayə janrı ilə təmsil olunurdu: hekayənin isə milli gerçəkliyi, xüsusilə yeni sovet həqiqətlərinin təsvir və təcəssüm imkanları məhdud idi. Roman yazmaq üçün isə yeni həyatğı, sosializmin tarixi mahiyyətini, partiyanın siyasətini dərindən bilmək və təsvir edib ümumiləşdirmək tələb olunurdu. Yazıçılar bu işə yalnız 30-cu illərdə girişməyə cəsarət etdilər.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Quliyev M. Əbülhəsənin «Dünya qopur» romanı haqqında // İnqilab və mədəniyyət, 1934, № 1-2.

2. Yenə orada. Quliyev M. Göstərilən məqalə.

3. Кулиев М. Октябрь и тюркская литература.

4. Кулиев М. Октябрь и тюркская литература.

5. M.Hüseyn. Görkəmli tənqidçi. «Ədəbiyyat və incəsənət» qəz., 1956, 23 dekabr.

6. Mehdi H. Proletar ədəbiyyatında iki cəbhəyə mübarizə. «Kommunimst» qəz., 1931, 25 aprel.

7. M.Hüseyn. Görkəmli tənqidçi. «Ədəbiyyat və incəsənət» qəz., 1956, 23 dekabr.

8. Второй Всесоюзный Съезд советских писателей. Стенографический отчет. «Советский писатель», 1956

**Г. Сулейманова**

## Становление азербайджанского романа и литературная критика

## Резюме

В данной статье рассматривается проблема классическое наследие в творчество одного из ведущего критика литературоведа 20-30 годов М.Гулиева. Первые печатаются азербайджанские советские романы в 30-х годах «Восхождение» Абулхасы и «Мир разрушен» отношение к романам пытался создать подлинное возвращение.

**G. Suleymanova**

## The literary criticism of the Azerbaijani novel

## Summary

In this article, the problem of the classical heritage in the creative work of one of the leading critic of the literary critic of the 20-30's, M. Guliyev, is considered. The first Azerbaijani printable Soviet novels in the 30s attitude towards novels was trying to create a genuine return.

**Redaksiyaya daxil olub:** 01.05.2018